# Pasiyentlər üçün yaddaş kitabçası

## Valproy turşusu. Kontrasepsiya və hamiləlik: siz nəyi bilməlisiniz

## Pasiyentlər üçün yaddaş kitabçası

Bu buklet tərkibində valproy turşusu olan istənilən dərman vasitəsini qəbul edən qızlar və qadınlar, habelə onların qəyyumları/qanuni nümayəndələri üçün nəzərdə tutulmuşdur.

Bu, valproy turşusu ilə müalicə zamanı hamiləliyin qarşısının alınması Proqramının tədbirlərdən biri olub, əsas məqsədi preparatın hamiləlik zamanı istifadəsinin riskinin azaldılmasıdır.

Bukletdə valproy turşusunnun hamiləlik zamanı istifadəsinin riski haqqında əsas məlumat vardır.

**Bu buklet tərkibində valproy turşusu olan istənilən dərman vasitəsini qəbul edən reproduktiv yaş dövründə olan qızlar və qadınlar, habelə onların qəyyumları/qanuni nümayəndələri üçün nəzərdə tutulmuşdur.**

- Bu bukletdə valproy turşusunun hamiləlik zamanı istifadəsinin riskləri haqqında əsas məlumat vardır.
- Həkim sizə valproy turşusunu ən münasib müalicə variantı olaraq tövsiyə etdiyi halda bu bukleti oxumanız çox vacibdir.
- Valproy turşusunun hamiləlik zamanı istifadəsinin riskləri preparatı qəbul edən bütün qızlar və qadınlar üçün eynidir.

**Bu buklet və dərman vasitəsinin qutusuna yerləşdirilmiş tibbi istifadəsinə dair təlimat ilə tanış olun.**

- Valproy turşusunu bir neçə müddətdir qəbul etməyinizə baxmayaraq, təlimat ilə tanış olmağınız vacibdir, çünki təlimatda preparat haqqında ən aktual məlumat vardır.

**Ola bilsin, sizə bu bukletin partnyorunuz, dostlarınız və ya ailə üzvlərinizlə müzakirəsi gərək olacaq.**

- Hər hansı bir sualınız yarandığı halda müalicə həkiminizə müraciət edin.

**Bu bukleti saxlayın. Ola bilsin, sizə onu yenidən oxumağınız gərək olsun.**

## MÜNDƏRİCAT


1. Yadda saxlanılmalı olan əsas məlumat.
2. Qadınlarda və hamiləliyin baş verməsi mümkün olan qızlarda kontrasepsiya
3. Valproy turşusunun hamiləlik dövründə istifadəsinin riskləri hansılardır?
4. Anadangəlmə inkişaf qüsurları
5. İnkişaf və təlim problemləri
6. Bu mənim üçün nə deməkdir?
   - Mən valproy turşusu ilə müalicəyə başlayıram
   - Mən valproy turşusunu qəbul edirəm və ailə qurmağı planlaşdırmıram
   - Mən valproy turşusunu qəbul edirəm və ailə qurmağı planlaşdırıram
   - Mən valproy turşusunu qəbul edirəm və məndə hamiləlik baş verib

## 1. YADDA SAXLANILMALI ƏSAS MƏLUMAT

- Valproy turşusu – epilepsiyanın və bipolyar pozulmanın müalicəsi üçün dərman vasitəsidir.
- Qadınlar və qızlar valproy turşusunu yalnız digər preparatlar kifayət qədər effektiv olmadığı halda qəbul etməlidir, çünki valproy turşusunun hamiləlik zamanı istifadəsi dölə ciddi zərər yetirə bilər. Xəstəliyinizdən asılı olmayaraq, həkimin göstərişi olmadan valproy turşusunun qəbulunu dayandırmayın.
- Valproy turşusunu qəbul edərkən hər zaman effektiv kontrasepsiya üsullarından istifadə edin
    - Kontrasepsiyanı bütün valproy turşusu qəbulu müddətində istifadə edin
    - Heç bir halda kontraseptiv preparatların qəbulunu dayanadırmayın

  Həkim sizə effektiv kontrasepsiya üsulunu tövsiyə edəcək.
  Bu, sizi planlaşdırılmamış hamiləlikdən qorumaq üçün zəruridir.
- Hamiləlik baş verdiyindən şübhəniz olduğu halda müalicə həkiminiz ilə təcili görüşü planlaşdırın.
- Hamiləliyi planlaşdırdığınız halda dərhal həkiminiz ilə məsləhətləşin, o vaxta qədər isə kontrasepsiyanı dayandırmayın.
- Heç bir halda həkimin göstərişi olmadan valproy turşusununun qəbulunu dayandırmayın, çünki bu, xəstəliyinizin gedişini ağırlaşdıra bilər.
- Müntəzəm qaydada (ən azı ildə bir dəfə) profilli mütəxəssisin konsultasiyasını keçməyə unutmayın.
- Həkimin qəbulunda, valproy turşusunun hamiləlik zamanı istifadəsinin riskləri ilə yaxşı tanış olduğunuza və onları tam şəkildə dərk etdiyinizə əmin olmaq üçün, risklər ilə razılıq haqqında məlumatın verilməsi formasını müzakirə edəcəksiniz.

## 2. QADINLARDA VƏ HAMİLƏLİYİN BAŞ VERMƏSİ MÜMKÜN OLAN QIZLARDA KONTRASEPSİYA

**Kontrasepsiyanın istifadəsi niyə zəruridir?**

Valproy turşusu qəbul edərkən hər zaman effektiv kontrasepsiya üsullarından istifadə edin:

- Kontrasepsiyanı bütün valproy turşusu qəbulu müddətində istifadə edin
- Heç bir halda kontrasepsiyanın istifadəsini dayandırmayın

Həkim sizə effektiv kontrassepsiya üsulunu tövsiyə edəcək.

Bu, sizi planlaşdırılmamış hamiləlikdən qorumaq üçün zəruridir.

**Mən hansı kontrasepsiya üsulundan istifadə etməliyəm?**

Sizin üçün ən yaxşı olan kontrasepsiya üsulunu həkiminiz ilə müzakirə edin.

Ətraflı məlumat üçün müalicə həkiminizə, mama-ginekoloqunuza və ya mama-tibb bacısına müraciət edin.

## 3. HAMİLƏLİK ZAMANI VALPROY TURŞUSUNUN İSTİFADƏSİNİN RİSKLƏRİ HANSILARDIR?

**Uşağınız üçün risklər**

Hamiləlik zamanı valproy turşusu qəbul etdiyiniz təqdirdə, bu, sizin uşağınıza ciddi zərər yetirə bilər.

- Valproy turşusunun qəbulu zamanı epilepsiyanın və ya bipolyar pozulmanın müalicəsi üçün nəzərdə tutulmuş digər preparatlar ilə müqayisədə risk daha yüksəkdir.
- Risklər həmçinin valproy turşusunun aşağı dozalarının qəbulu zamanı saxlanılır – risk dozanın artmasına müvafiq olaraq yüksəlir.

**Mənim uşağıma hansı zərər yetirilə bilər?**

Hamiləlik zamanı valproy turşusunu qəbul etdiyiniz halda sizin uşağınızda aşağıda sadalanan pozulmalar müşahidə oluna bilər:

- Anadangəlmə inkişaf qüsurları
- İnkişaf və təli problemləri

## 4. ANADANGƏLMƏ İNKİŞAF QÜSURLARI

**Hamiləlik zamanı valproy turşusunun qəbulu uşaqlarda ciddi anadangəlmə inkişaf qüsurların yaranmasına səbəb ola bilər.**

Ümumi populyasiyanın qadınlarında:

- 100 uşaqdan 2-3-də anadangəlmə inkişaf qüsurları olacaq.

Hamiləlik zamanı valproy turşusunu qəbul edən qadınlarda:

- 100 uşaqdan təxminən 10-da anadangəlmə inkişaf qüsurları qeyd olunacaq.

**Hansı inkişaf qüsurları inkişaf edə bilər?**

- Onurğa sütununun yarılması – onurğa sütununun sümükləri düzgün inkişaf etmir.
- Üz və kəllə sümüklərinin deformasiyası, həmçinin "dovşan dodağı" və "qurd ağız" (üst dodağın və/və ya üz sümüklərinin yarılması).
- Ətrafların, ürəyin, böyrəklərin, sidik yollarının və cinsiyyət orqanlarının düzgün formalaşmaması.
- Eşitmə qabiliyyətinin zəifləməsi (karlıq daxil olmaqla).

## 5. İNKİŞAF VƏ TƏLİM PROBLEMLƏRİ

**Hamiləlik zamanı valproy turşusunun qəbulu sizin uşağınızın inkişafına təsir göstərə bilər.**

Hamiləlik zamanı valproy turşusunu qəbul edən qadınlarda:

- 100 uşaqdan təxminən 30-40-da inkişaf problemləri qeyd oluna bilər.

Uzunmüddətli fəsadlar məlum deyil.

Aşağıda qeyd olunan inkişaf problemləri qeyd oluna bilər:

- Yerimənin və nitqin daha ləng inkişafı.
- Həmin yaşda olan digər uşaqlar ilə müqayisədə daha zəif əqli inkişaf.
- Zəif nitq bacarıqları.
- Yaddaş problemləri.

Hamiləlik zamanı valproy turşusunu qəbul edən qadınlardan olan uşaqlarda autizm və ya autistik spektrin pozulmaları daha çox müşahidə olunur. Bundan başqa, həmin uşaqlarda diqqət çatışmazlığı və/və ya hiperaktivlik sindromunun inkişafı riski daha yüksək ola bilər.

## 6. BU, MƏNİM ÜÇÜN NƏ DEMƏKDİR?

Aşağıda təsvir edilmiş vəziyyətlərdən sizə aid olanı seçin və müvafiq informasiyanı oxuyun:

- Mən valproy turşusu ilə müalicəyə başlayıram.
- Mən valproy turşusunu qəbul edirəm və ailə qurmağı planlaşdırmıram.
- Mən valproy turşusunu qəbul edirəm və ailə qurmağı planlaşdırıram.
- Mən valproy turşusunu qəbul edirəm və məndə hamiləlik baş verib.

### <u>Mən valproy turşusu ilə müalicəyə başlayıram</u>

**Həkim sizə onun niyə məhz valproy turşusunun sizə uyğun olan preparat hesab etdiyini izah edəcək və bütün məlum olan risklər haqqında məlumat verəcək:**

- Siz hamiləliyin baş verməsi üçün çox cavan olduğunuz halda**:**
    - Həkim sizə valproy turşusunu yalnız digər dərman vasitələri heç biri təsir etmədiyi halda təyin etməlidir.
    - Sizin və ya sizin valideynlərinizin/qəyyumlarınızın valproy turşusunun hamiləlik zamanı istifadəsinin riskləri haqqında bilməyiniz vacibdir. Bu halda siz, hamiləliyi planlaşdırmaq üçün kifayət qədər böyük olduğu zaman necə hərəkət edəcəyinizi biləcəksiniz.
    - Valproy turşusu qəbulu zamanı sizdə ilk aybaşı baş verdiyi halda siz və ya sizin valideynləriniz/qəyyumlarınız dərhal profilli mütəxəssisə müraciət etməlisiniz.
- Siz hamiləliyin baş verməsi üçün kifayət qədər böyük olduğu halda**:**
    - Həkim sizə valproy turşusunu yalnız siz hamilə olmadığınız və kontraseptiv vasitələrdən istifadə etdiyiniz halda təyin etməlidir.
    - Həkim sizə valproy turşusunu təyin etməzdən əvvəl sizdən hamiləlik testini keçməyə xahiş edəcək. Bu, sizdə hamiləliyin baş verməməsinə əmin olmaq üçün lazımdır.
    - Valproy turşusunu qəbul edərək hər zaman effektiv kontrasepsiya üsullarından istifadə edin:
        - Kontrasepsiya bütün valproy turşusu qəbulu müddətində istifadə olunmalıdır
        - Heç bir halda kontrasepsiyanın qəbulunu dayandırmayın

      Həkim sizə effektiv kontrasepsiya üsulunu tövsiyə edəcək.

      Bu, sizdə hamiləliyin baş tutmaması üçün vacibdir.
    - Sizin müalicəyə müntəzəm qaydada (ən azı ildə bir dəfə) həkim tərəfindən yenidən baxılmalıdır.
- İlkin konsultasiyada həkim sizdən hər il doldurulan risklər ilə razılıq haqqında məlumatın verilməsi Formasının oxumağınızı xahiş edəcəkdir. Bu, sizin hamiləlik zamanı valproy turşusunun istifadəsi ilə bağlı bütün risklər haqqında məlumatı əldə etməyiniz və anlamağınız üçün və,

həmçinin, valproy turşusunun qəbulu zamanı hamiləliyin baş verməsinin qarşısının alınmasına dair tövsiyələrin alınması üçün lazımdır.

- Ailə qurmaq qərarına gəldiyiniz halda olduqca tez bir zamanda həkiminizlə məsləhətləşin.
    - Həkimin tövsiyəsi olmadan valproy turşusunun qəbulunu və kontrasepsiyanın istifadəsini dayandırmayın.
    - Həkiminizlə uşağınızın sağlamlığı üçün olan risklər və, həmçinin, xəstəliyinizi necə nəzarət altında saxlamaq haqqında danışmalısız.
    - Hamiləliyi planlaşdırmazdan əvvəl müalicənizin hansı şəkildə davam etdirilməsi haqqında həkiminiz ilə qərarlaşdırmalısız.

## **Mən valproy turşusunu qəbul edirəm və ailə qurmağı planlaşdırmıram**

Valproy turşusunu qəbul etdiyiniz halda hər zaman effektiv kontrasepsiya üsullarından istifadə edin və hamiləliyi planlaşdırmayın.

- Valproy turşusunu qəbul etdiyiniz bütün müddət ərzində kontraspensiya tətbiq edin
- Kontrasepiya tətbiqini heç bir halda dayandırmayın

Kontrasepsiyaya dair məsləhətə ehtiyacınız olduğu halda müalicə həkiminiz və ailə planlaşdırılması klinikasında mama-ginekoloq ilə görüşün.

Hamiləliyin baş verməsindən şübhələndiyiniz halda, dərhal həkiminiz ilə məsləhətləşin.

Sizdə hamiləlik baş verdiyi halda hətta həkiminiz ilə danışmadan valproy turşusunun qəbulunu dayandırmayın, çünki bu sizin və uşağınız üçün təhlükəli ola bilər.

Sizin müalicənizə müntəzəm qaydada (ən azı ildə 1 dəfə) həkim tərəfindən yenidən baxılmalıdır.

İllik konsultasiyada həkim sizdən hər il doldurulan risklər ilə razılıq haqqında məlumatın verilməsi Formasının oxumağınızı xahiş edəcək. Bu, sizin hamiləlik zamanı valproy turşusunun istifadəsi ilə bağlı bütün risklər haqqında məlumatı əldə etməyiniz və anlamağınız üçün və, həmçinin, valproy turşusunun qəbulu zamanı hamiləliyin baş verməsinin qarşısının alınmasına dair tövsiyələrin alınması üçün lazımdır.

## **Mən valproy turşusunu qəbul edirəm və ailə qurmağı planlaşdırıram**

**Hamiləliyi planlaşdırmazdan əvvəl həkiminiz ilə məsləhətləşin, lakin:**

- **Valproy turşusunun qəbulunu davam edin**
- **Həkim ilə məsləhətləşənədək kontrasepsiyanın istifadəsini davam etdirin.**

Həkiminizlə danışmazdan əvvəl hamiləliyin baş verməməsi vacibdir.

- Ola bilsin, hamiləlik baş verməzdən çox əvvəl həkim, sizin xəstəliyinizin stabil olduğuna əmin olmaq üçün  sizə digər preparat təyin etməli olacaq.
- Uşağınızın sağlamlığı üçün riskin azaldılması və xəstəliyinizin nəzarət altında saxlanılması üçün nə etməyinizi həkim ilə müzakirə etməlisiniz.
- Hamiləliyi planlaşdıraraq həkim ilə fol turşusunun qəbulunun zəruriliyi haqqında danışın. Fol turşusu hər bir hamiləlik halında mövcud olan onurğa sütununun yarılması və erkən mərhələdə düşük təhlükəsini azalda bilər. Buna baxmayaraq, bu halda şübhəlidir.

Sizin müalicənizə müntəzəm qaydada (ən azı ildə bir dəfə) həkim tərəfindən yenidən baxılmalıdır.

Görüş zamanı həkim sizdən risklər ilə razılıq haqqında məlumatın verilməsi Formasının oxumağınızı xahiş edəcək. Bu, sizin hamiləlik zamanı valproy turşusunun istifadəsi ilə bağlı bütün risklər haqqında məlumatı əldə etməyiniz və anlamağınız üçün və, həmçinin, valproy turşusunun qəbulu zamanı hamiləliyin baş verməsinin qarşısının alınmasına dair tövsiyələrin alınması üçün lazımdır.

## Mən valproy turşusu qəbul edirəm və məndə hamiləlik baş verib

Sizdə hamiləlik baş verdiyinizə şübhəniz olduğu halda:

**Valproy turşusunun qəbulunu dayandırmayın,** əks halda sizdə epilepsiyanın və ya bipolyar pozulmanın gedişi ağırlaşa bilər.

**Dərhal müalicə həkiminiz ilə məsləhətləşin.** Bu halda siz sizdə mövcud olan variantları müzakirə edə bilərsiz. Ola bilsin, həkim sizə digər preparatı təyin edəcək və valproy turşusunun qəbulundan yeni preparatın qəbuluna necə keçməsini izah edəcək.

şyüksəkdir:

- Anadangəlmə inkişaf qüsurları,
- İnkişaf və təlim problemləri.

Bu sizin uşağınızın həyatınıza ciddi təsir göstərə bilər.

Bəzi hallarda digər preparatın qəbuluna keçməsi qeyri-mümkündür. əlavə məlumat üçün müalicə həkiminizə müraciət edin.

Görüş zamanı həkim sizdən risklər ilə razılıq haqqında məlumatın verilməsi Formasının oxumağınızı xahiş edəcək. Bu, sizin hamiləlik zamanı valproy turşusunun istifadəsi ilə bağlı bütün risklər haqqında məlumatı əldə etməyiniz və anlamağınız üçün və, həmçinin, valproy turşusunun hamiləlik zamanı istifadəsi ilə bağlı tövsiyələrin alınması üçün lazımdır.

Siz ciddi nəzarət altında olacaqsız ki,

- Xəstəliyiniz nəzarət altında olduğuna əmin olmaq üçün,
- Həmçinin uşağınızın necə inkişaf etdiyini yoxlamaq üçün.